FƏLSƏFƏ VƏ SOSİOLOGİYA

**UOT 1.16.165.3**

# PAYLANMIŞ İDRAK VƏ PAYLANMIŞ BİLİK: AKTOR-ŞƏBƏKƏ YANAŞMASI VƏ SİNERGETİK TƏSƏVVÜRLƏRİN SİNTEZİNDƏ

**Vüsal ZÜLFÜQAROV***

Məqalə redaksiyaya daxil olmuşdur: 1 oktyabr 2024; çapa qəbul edilmişdir: 30 oktyabr 2024; online-da çap edilmişdir: 11 dekabr 2024.

Received: 1th of October, 2024; accepted: 30th of October, 2024; published online: 11th of December, 2024.

**Açar sözlər:** *epistemologiya, biliyin alınması, idrakın paylanması, biliyin paylanması, koqnitiv, qeyri-xəttilik, intersubyektivlik, fənlərarası tədqiqat, biliklərin inteqrasiyası*

## Giriş

Elmi idrakın dinamik və öncəki mərhələlərdən fərqli inkişafı məsələsi filosoflar və alimlər qarşısında çoxlu sayda suallar qoymuşdur. Onların kompleks halda fəlsəfi araşdırılmasına cəhdlər az deyildir. Onların sırasında elmi idrakın müasir mərhələdə mahiyyəti, koqnitiv və sosial funksiyaları ayrıca yer tutur. Problemin bu aspekti də çoxşaxəlidir və həmin səbəbdən bir məqalədə onun yalnız müəyyən aspektlərinə baxmaq mümkündür. Həmin baxımdan filosoflar və elmin metodoloqları üçün aktual hesab edilən bir məsələyə bu məqalədə nəzər salmağa çalışacayıq.

Keçən əsrin 70-90-cı illərindən elmin daha mürəkkəb struktur və funksional keyfiyyətlərə malik tədqiqat obyektlərini dərk etməyə başlaması ilə dərketmə prosesinin özünün daha adekvat formasını axtarmaq məsələsi də xeyli aktuallaşdı. Filosoflar üçün sual konkret idi: “elmi dərketmə prosesinin mahiyyəti, məzmunu və funksiyaları yeni idraki situasiyalarda necə dəyişir və onların fəlsəfi refleksiyası mümkündürmü?”.

Bu sualın fonunda XX əsrin 90-cı illərində Edvin Hatçinsin hərbi sfera üçün daxil etdiyi “paylanmış idrak” anlayışı maraq doğurmuşdur. Sonralar onu genişləndirərək təhsil, səhiyyə, mürəkkəb sosial-texniki sistemlərin formalaşması proseslərinin dərkinə aid etmişlər. E.Hatçinsin ideyasının məğzi hər hansı elmi məsələnin həlli zamanı alınan qərarlarda idraki funksiyaların paylanması ilə bağlı idi [5; 6; 13, s. 22].

Bunu elmi dərketmə üçün ümumiləşdirəndə idrak prosesində müxtəlif iştirakçıların iki aspektdə funksiyası önə çıxarılır: Birincisi, sırf koqnitiv aspektdə dərketmə prosesində müxtəlif iştirakçılar arasında idrakın paylanması və alınan biliklərin tətbiqində dərketmə iştirakçılarının funksiyalarının paylanması; İkincisi, alınan biliklərin cəmiyyətə tətbiqi zamanı tədqiqatçıların məsuliyyətinin paylanmasıdır.

Sonralar E.Hatçinsin qaldırdığı elmi problem fonunda məsələni fəlsəfi olaraq aşağıdakı formul çərçivəsində izah etdilər: birincisi, elm sosial fəzilətdirsə, onun sosial-epistemoloji şərtləri hansılardır, ikincisi, bu kontekstdə epistemoloji ədalətliliyin şərtləri necədir [3; 7; 8; 13].

* *fəlsəfə üzrə fəlsəfə doktoru, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*
*e-mail:* vzulfugarov@gmail.com

**https://doi.org/10.30546/25194011.2024.13.5.0130**

Problemlə bağlı bir epistemoloji özəlliyi də vurğulamaq lazımdır. İqtisadçılar elmin fəzilət ( və ya sosial rifah) olması ilə bağlı iqtisadi aspektdə qeyri-müəyyənliyin olmadığı qənaətindədirlər. Bu barədə XX əsrin astanasında J.Y.Stiqlis yazırdı ki, elmin sosial rifahlığı iqtisadiyyatda şübhə doğurmur [10, s. 310-322]. Fəlsəfə üçün isə bu, aktiv müzakirə obyekti kimi qalır [12, s. 225].

Bütün bu mürəkkəb və fərqli yanaşmaların fonunda biz bu məqalədə problemin ancaq bir aspekti üzərində dayanacağıq. Sual belədir: "“elmi idrakın paylanması” epistemologiyasının indiki mərhələdə fənlərarası tədqiqatlarda səmərəli olmasının koqnitiv şərtləri necə ola bilər?”.

Bu suala cavabı predmet fəlsəfəsi kontekstində, yəni müasir elmin nailiyyətləri fonunda fənlərarası yanaşma prizmasında axtaracağıq. Bunun üçün fənlərarası yanaşmadan istifadə edilir.

Metodoloji prinsiplər kimi, qeyri-xəttilik, intersubyektivlik və sinergetik təşəkkül seçilmişdir.

Seçilən metodoloji istiqamətə adekvat ola biləcək metod qismində isə dinamik və açıq sistemlərin inteqrasiyası tədqiqat üsuluna üstünlük verilir.

Bu müddəaların fonunda məqalədə yer almış nəzəri-elmi bazaya qısa diqqət edək.

## 1. Araşdırmanın elmi-nəzəri bazası

Məqalənin elmi-nəzəri bazasında “paylanmış idrak” epistemologiyası dayanır. “Paylanmış idrak” konsepsiyası üzrə E.Hatçins [5], R.Fagin [9], M.Friker [3], M.Norton [7], İ.Kasavin [12], L.A.Şipovalova [10] və başqalarının əsərlərində yer almış müddəalara baxılır. Onu da vurğulayaq ki, məqalədə “paylanmış bilik” anlayışına da müraciət vardır. Burada paylanmış bilik elmi tədqiqatın nəticələrinin bütövlükdə cəmiyyətdə tətbiqi aspektində paylanmasını nəzərdə tutur. Məsələnin bu aspektinə əsas olaraq paylanmış biliyin M.Perri mənasında anlamı prizmasında nəzər salırıq [9].

Metodoloji prinsiplər yanaşmamızın məzmununa uyğun məna çalarları kəsb edir. Qeyri-xəttilik prinsipi elmi dərketmədə müxtəlif idrak subyektləri arasında münasibətlərin qeyri-xəttiliyini ifadə edir. Belə ki, dərketməyə universal koqnitiv və sosial-mədəni fenomen kimi baxsaq, onda onlar arasında münasibətlərin qeyri-xətti mahiyyətdə olduğunu görərik. Nümunə kimi, kiçik yaradıcı qrupun böyük elmi nəticə əldə edə biləcəyini və ya böyük qrupun kiçik nəticə ala biləcəyini göstərmək olar. Sosial-mədəni kontekstdə yüksək elmi-texnoloji potensiala malik mühitdə çalışanların heç də həmişə yüksək nəticə əldə etmədiyi gerçəkliyi nəzərə alınır.

İntersubyektivlik prinsipi isə fənlərarası araşdırmada aparıcı rol oynayan kollektiv fəaliyyət üsulu kimi qəbul edilir. Bu anlamda müasir elmi idrak həmişə intersubyektiv mahiyyətlidir.

Sinergetik təşəkkül prinsipi isə elmi tədqiqatın nəticələrinə aiddir. Bu prinsip alınan biliklərin sistemli, qeyri-xətti və açıq formada inteqrativ funksiya yerinə yetirə bildiyini ifadə edir. Bu anlamda sinergetik təşəkkül prinsipi mahiyyətcə elmi fəaliyyətin inteqrativ xarakterli olmasını əks etdirir.

Nəhayət, seçilən metod məqalədə dinamik və açıq sistemlərin inteqrasiyasına üstünlük verildiyini göstərir. Məsələnin müasir elmi idrakda elmi fəaliyyətin və alınan biliklərin dinamik və açıq sistemlərin inteqrasiyası kontekstində araşdırılmasında əsas məqsəd bundan ibarətdir.

## 2. “Paylanmış idrak” və “paylanmış bilik”: fərqli yanaşmalar

“Paylanmış idrak” termininin yaranmasının maraqlı praktiki tarixçəsi vardır. Onu Edvin Hatçins hərbi gəmidə işləyən komandanı müşahidə edərkən formalaşdırmağa başlamışdır. 1984-cü ildə ilk nəzəri-konseptual qənaətə gəlmişdir: real zamanda idrakın özünəxas təbii

mahiyyəti vardır. İdrak "sosial olaraq paylanmış" xüsusiyyətə malikdir [5, s. 12]. Bununla o, gəmi nümunəsində bütöv idraki situasiyanın koqnitiv və sosial aspektlərin qarşılıqlı əlaqəsində "özünün təbii mahiyyətini" ifadə etdiyini göstərmək istəmişdir.

Eyni zamanda, E.Hatçins konkret olaraq koqnitiv antropologiyanın sosial antropologiyadan ayrılması ilə idrakda "cəmiyyət və sosial praktikanın kənarda qaldığı"nı vurğulayır [5, s. 13]. Buradan ümumi bir nəticə alınır: idrak tam mənasında sırf koqnitiv hadisə deyildir – o həm də sosial-mədəni mühiti, mədəniyyəti özündə ehtiva edir.

E.Hatçinsin yanaşmasının əsasında "idrak hesablamadır" tezisi dayanır. Bundan çıxış edərək fərdin idrakının daha geniş əhatədə hesablama idrakının tərkib hissəsi olduğu tezisini alır. Növbəti addımda fərdin idraki hesablamalarını aşan və geniş "hesablama koqnitiv sistemi olan miqyasa" çıxış edir.

Beləliklə, E.Hatçins yanaşmasının başlıca koqnitiv özəlliyinə gəlib çıxır. O yazır ki, "daha böyük sistemlər necə işləyir və onların koqnitiv xüsusiyyətləri tərkib hissələrinin qarşılıqlı əlaqəsi nəticəsində necə yaranır" sualına cavab tapmaq aktualdır [5, s. 15]. Bunlardan ümumi qənaət alınır ki, mədəniyyət sisteminin fəaliyyətinin "özünəməxsus koqnitiv özəllikləri" vardır və onlar "insanların koqnitiv keyfiyyətlərindən fərqlənirlər". Bu səbəbdən, tam idrak sistemin koqnitiv xüsusiyyətləri ilə insanın koqnitiv özəlliklərinin sintezidir [5, s. 11-18]. Son olaraq, bu müddəanı ümumiləşdirib belə nəticə çıxarmaq olar ki, dərketmə insanların birgə fəaliyyəti, problem və istifadə edilən idraki alətlərin sistemidir. Başqa sözlə, elmi idrakda onun tərkib hissələri arasında paylanma olur.

E.Hatçinsin idrakın paylanması anlayışını sonralar müxtəlif aspektlərdə inkişaf etdirdilər. Nəticədə problemlə bağlı müzakirələr prosesi meydana gəldi. Həmin müzakirələr əsasən paylanmış idrak anlayışı fonunda elmin necə fəzilətli ola bilməsi kontekstində aparılmaqdadır. Burada da mövqe fərqləri özünü göstərməyə başladı.

J.E.Stiqlis iqtisadi aspektdə elmin fəzilətliliyini mütləq sayır. O yazır ki, bu məsələdə hər hansı koqnitiv şübhə yoxdur – iqtisadiyyat baxımından elmin funksiyası fəzilət mahiyyətlidir. J.E.Stiqlis vurğulayır ki, "bu gün bilik yalnız ictimai fəzilət deyildir, həm də qlobal və beynəlxalq ictimai rifahdır" və "bilik uğurlu inkişaf üçün həlledici əhəmiyyətə malikdir" [10, s. 308].

İ.T.Kasavin isə fəlsəfə və epistemologiya üçün elmin fəzilətliliyinin çoxkomponentli məsələ olduğunu vurğulayır və onun bir neçə növünü ayırır. Bunun fonunda belə qənaətə gəlir ki, həmin problem "diskussiya xarakterlidir" və geniş müzakirə olunmalıdır. Bu anlamda elmin fəzilətliliyi "riskli fəlsəfi layihədir" [12, s. 225].

Bir sıra filosoflar paylanmış idrak epistemologiyası çərçivəsində "epistemoloji ədalətsizlik"dən bəhs edirlər. Məsələ onunla bağlıdır ki, paylanmış idrak epistemologiyası özündə peşəkar və qeyri-peşəkar yaradıcı kəsimi, sosial-mədəni mühiti, ictimai kəsimləri, idarəetmə və informasiya-kommunikasiya texnologiyalarını, texniki mühiti birləşdirir. Yəni çoxkomponentli və mürəkkəb bir sistem yaranır. Fikir müxtəlifliyi də məhz problemin bu özəlliyi ilə bağlıdır.

M.Friker bu məqamları ümumiləşdirərək paylanmış idrakda iki epistemoloji ədalətsizlik əlamətini ayırır. Biri etimad çatışmazlığından qaynaqlanır. Digəri isə iştirakçıların anlamları səviyyələri arasında olan fərqdən irəli gəlir və "hermenevtik ədalətsizlik" adlanır. M.Friker həmin anlayışları belə izah edir: epistemoloji etimadsızlıq dinləyicinin bilik verənə aşağı səviyyədə inanmasından yaranır, hermenevtik ədalətsizlik isə öncəki mərhələdə kollektiv interpretasiya resurslarında kiminsə uyğunsuz və əlverişsiz vəziyyətə salınması ilə bağlıdır [13, s. 1-8].

Görünür, M.Frikerin vurğuladığı bu növ ədalətsizlik nəticəsində hazırda fəlsəfədə "incimiş intellektlər" anlayışı da işlədilir. "İncimiş intellektlər" informasiya əlçatanlıqları məhdudlaşdırılmış və cəmiyyətin dərk edilməsində istifadə olunmayan yaradıcı adamlara verilən ümumi addır. Yəni onların "sosial təcrübəsi"ndən (M.Friker) lazımi səviyyədə

yararlanılmır.

M.Frikerin epistemoloji ədalətsizlik ideyasını inkişaf etdirən H.Medina isə bir qədər fərqli qənaətə gəlir. O, epistemoloji ədalətsizliyə kontekstualist yanaşma edir. Bu əsasda epistemoloji ədalətsizliyin "tarixi və trayektoriyası" anlayışını daxil edir. Eyni zamanda, "ədalətsizliyin sosial proyeksiyası"ndan bəhs edir. Bu faktorun sosial münasibətlər modellərində kök saldığını yazır. Nümunə kimi epsitemoloji ifrat nüfuzu göstərir. Yəni epistemoloji ədalətsizliyin kökündə hansısa qrupun ifrat epistemoloji nüfuzunun olması və bunun fonunda ədalətsizliyin yaranmasına işarə edir [7, s. 16-32].

Müasir araşdırıcılar epistemoloji ədalətsizliyin bütövlükdə elmi idraka xas olduğunu ifadə edirlər, lakin məsələnin diskusiya xarakteri daşıdığını da vurğulayırlar. Məsələn, İ.Gürol və K.Faik yazırlar ki, "biliyin alınması prosesində epistemik risklərin ədalətsiz idarəedilməsi" halına rast gəlinir ki, bu barədə də düşünmək lazımdır [4, s. 17].

Nəhayət, bütün bu yanaşmalara sanki daha ümumi səviyyədən yanaşan L.V.Şipovalova hesab edir ki, elmin sosial fəzilət olub-olmadığını araşdırmaq üçün paylanmış idrak epistemologiyasından bir qədər fərqli aspektdə istifadə etmək lazımdır. Bunun üçün elmi idrakın paylanmasının ekstensiv və intensiv mənalarını qarşılıqlı əlaqədə nəzərə almaq gərəkdir. Ekstensiv paylanma idrak iştirakçılarını prinsipcə sonsuz sayda əlavə etmək potensialına aiddir. İntensiv paylanma isə istənilən epistemoloji mövqenin paylana bilən olduğu ilə bağlıdır [13, s. 22].

"Paylanmış idrak" epistemologiyası məsələsinin digər tərəfi "paylanmış bilik" anlayışı ilə əlaqəlidir. "Paylanmış bilik" mövcud biliklərin paylanmasını nəzərdə tutur. Bununla o, paylanmış idrakdan fərqlənir. Çünki paylanmış idrak birbaşa elmi biliklərin alınmasına aiddir. Artıq formalaşmış və müəyyən kollektiv daxilində kommunikativ aspektdə istifadə olunan bilikləri paylaşmaq olar. Obrazlı desək, "paylanmış bilik, fərdlərin bütün biliklərinin kommunikasiyada olan qruplarda birləşməsidir" [9].

Təbii ki, burada biliyin alınması ilə paylanması arasında sıx bağlılıq mövcuddur. Lakin biliyin paylanması mövcud informasiyaların ünsiyyətdə olanları və ya müəyyən işçi qrupu daxilində kommunikativ münasibətlərini ifadə edir. Bu proses ümumilikdə kollektiv biliklərin yayılması baxımından əhəmiyyətlidir [13].

Biliklərin alınmasında idraki fəaliyyətin paylanması ilə alınan biliklərin paylanması arasındakı məntiqi və funksional bağlantı meydana suallar çıxarır. Araşdırmalar göstərir ki, bu zaman epistemoloji ədalətsizlik yarana bilir. Yuxarıda elmi problemin bu aspekti ilə bağlı müəyyən dərəcədə təhlil aparmışıq. Daha geniş anlamda epistemoloji ədalətsizlik müasir elm üçün ciddi məsələlərdən biridir. Fənlərarası tədqiqatlar üçün bu, daha səmərəli yaradıcılığın qarşısına əngəllərin çıxmasıdır. Çünki vahid yaradıcı komandada çalışanların eyni koqnitiv və sosial-mədəni-texniki pozisiyada olmamaları kreativlik dərəcəsini aşağı salır.

Bununla yanaşı, alınan biliklərin qiymətləndirilməsində daha geniş dairədə ekspertlərin iştirakının təmin edilməsi məsələsi də böyük əhəmiyyət kəsb edir. Bütün bunlar onu təsdiq edir ki, fənlərarası tədqiqat üçün paylanmış idrak və paylanmış bilik epistemologiyalarının harmoniyası ciddi rol oynayır. Elmi problemin bu aspekti üzərində geniş dayanaq.

### 3. Fənlərarası tədqiqatlarda paylanmış idrak və paylanmış bilik: aktor-şəbəkə nəzəriyyəsi və sinergetik təsəvvürlərin inteqrasiyası prizmasında

Yuxarıdakı təhlildən də göründüyü kimi, paylanmış idrak özlüyündə mürəkkəb məzmuna malikdir və orada hər şey tam aydın deyildir. Söhbət konkret tətbiqi aspektdən gedirsə, məsələ daha da mürəkkəbləşir. Çünki qeyri-xətti proseslərdə (elmi idrak mahiyyətcə qeyri-xəttidir və üstəlik, intersubyektiv xarakterlidir) universal idraki kriteriyalar müəyyən etmək xeyli çətindir – hər nümunə üçün özəl yanaşma müəyyən etmək və bəzən

xüsusi şərtlər qoymaq lazım gəlir. Bu məsələ, xüsusilə fənlərarası tədqiqatlarda daha da aktuallaşır. Mövcud vəziyyəti daha da aydınlaşdırmaq üçün paylanmış idrakın mahiyyəti ilə bağlı lakonik tezislərə baxaq.

E.Haçkins mənasında idrakın paylanması yaradıcı komanda ilə texniki qurğuların və sosial-mədəni mühitin sintezində baş verir. Bu zaman avtomatik olaraq informasiyanı almağın müxtəlif strategiyaları özünü göstərir. Deməli, paylanmış idrak çərçivəsində mürəkkəb koqnitiv subyektdən danışmaq olar. Bu mürəkkəblik öz növbəsində başqa mürəkkəb koqnitiv və sosial-mədəni şərtləri meydana çıxarır. Çünki elmi fəaliyyətin səmərəli olması şərtlərini müəyyən etmək zərurəti yaranır. Bunun üçün iki faktor ödənməlidir: birincisi, komanda cəhdlərinin həmahəngliyi təmin edilməlidir, ikincisi, müxtəlif koqnitiv məsələ (idraki vəzifələr) koordinasiya olunmalıdır [10, s. 57].

Filosoflar paylanmış idrak kontekstində digər mühüm bir özəlliyi də vurğulayırlar. Məsələ ondan ibarətdir ki, biliyin paylanması əsasən konkret tədqiqat problemi və ya həll edilməli məsələ ilə bağlı olur. Məsələn, hər hansı praktiki qlobal məsələ və ya ictimai problemi həll etmək üçün kollektiv tədqiqat (fənlərarası yanaşma) lazım gəlir. Bu isə paylanmış idrakla yanaşı paylanmış bilik faktorunu da nəzərə almağı tələb edir. Yaradıcı adamlar bir komandada şəxsi (canlı ünsiyyətdə) və onlayn rejimində işləməli olurlar. Bu da klassik tədqiqat üsullarından fərqli koqnitiv mühit formalaşdırır. Eyni zamanda, konkret problemin tədqiqinə fokuslanmış araşdırma komandası keçici olur, məsələ həll edildən sonra dağılır. Deməli, burada paylanmış idrakla paylanmış biliyin özəl qarşılıqlı münasibətlərinin fəlsəfi dərki də aktuallaşır.

XX əsrin 90-cı illərində R.Faqin və həmkarları məsələnin bu aspektini ümumfəlsəfi kontekstdən daha lokal idraki kontekstə transfer edərək informatika, süni intellekt, linqvistika, fəlsəfə, koqnitiv elm və oyun nəzəriyyəsinin qarşılıqlı əlaqəsində müəyyən edilmiş məsələlərin tədqiqinə baxmışlar [9].

Bu müqayisələrdən çıxarıla biləcək vacib koqnitiv xarakterli nəticələrdən biri ondan ibarətdir ki, paylanmış idrakla paylanmış biliyin qarşılıqlı əlaqəsi prizmasında tədqiqatların fəlsəfi dərki müxtəlif tədqiqat kombinasiyalarını əhatə edə biləcək kriteriyaların müəyyənləşdirilməsini tələb edir. Bu da kifayət qədər mürəkkəb idraki situasiyadır və hər nümunədə kreativ olmağa ehtiyac yaranır. Söhbət faktiki olaraq paylanmış idrak və paylanmış biliyin qarşılıqlı əlaqədə fənlərarası araşdırma kontekstində fəlsəfi refleksiyasından gedir. Bu istiqamətdə hansı nəzəri-metodoloji yanaşma səmərəli ola bilər?

Bu suala cavab axtarışlarını E.Haçkinsin koqnitiv proseslərin paylanmasının üç istiqaməti ilə əlaqəli fikirləri işığında aparaq. E.Haçkins yazır ki, koqnitiv proseslər üç aspektdə paylana bilər. Birincisi, sosial qruplar vasitəsi ilə, ikincisi, daxili və xarici strukturlar arasındakı koordinasiya prosesində, üçüncüsü, zaman kontekstində öncəki mərhələdə alınan biliklər sonrakı mərhələdəki bilikləri müəyyən etdikdə [8, s. 2069-2071].

Belə alınır ki, idrakın paylanması ilə biliyin paylanması qarşılıqlı əlaqədə o zaman adekvat tədqiq oluna bilər ki, tətbiq edilən nəzəri yanaşma E.Haçkinsin vurğuladığı üç aspekti özündə ehtiva edə bilsin. Eyni zamanda, problemin bütövlükdə nəzəri-metodoloji özəlliklərinə adekvat dərketmə situasiyası yaratmağa imkan versin. Bu keyfiyyətdə biz B.Laturun aktor-şəbəkə nəzəriyyəsi ilə sinergetik təsəvvürlərin inteqrasiyası sayəsində alına biləcək ümumi idraki yanaşmanı səmərəli görürük.

B.Laturun aktor-şəbəkə nəzəriyyəsi bunun üçün lazımi nəzəri-metodoloji baza yarada bilər. Bu nəzəriyyə ilk olaraq elmin və texnologiyaların tədqiqində yaranmışdır. O, tədqiqat obyektlərinə sırf koqnitiv, texniki komplekslər, canlılar, sosial-mədəni faktorların qarşılıqlı əlaqəsində baxır. Yəni E.Haçkinsin idrakın və biliyin paylanması aspektlərinin hər birini əhatə edir.

Bundan başqa, B.Laturun aktor-şəbəkə nəzəriyyəsinin maraqlı bir özəlliyi də vardır. O, idrak obyektlərini həm də sosial münasibətlərin vahidləri kimi qəbul edir. Bu mənada

B.Laturun nəzəiyyərsini "tərcümə sosiologiyası" kimi də xarakterizə edirlər. Ancaq burada "tərcümə" linqvistik mənada deyil, məhz idraki kontekstdə işlədilir və daha çox transformasiya məzmunludur.

Bu yanaşma birbaşa paylanmış idrakla paylanmış biliyin sinergetik yanaşma çərçivəsində sintezi deməkdir. Yəni söhbət faktiki olaraq elə bir yeni epistemologiyadan gedir ki, orada koqnitivliklə sosial-mədəniliyin immanent vəhdəti mövcuddur. Bu da avtomatik olaraq paylanmış idrak epistemologiyasının paylanmış bilik epistemologiyası ilə fənlərarası tədqiqat sahəsində nəzəri-metodoloji sintezinin mümkünlüyünü göstərir.

Nəhayət, baxılan elmi problemin sinergetik yanaşma prizmasında tədqiqatçıların vurğuladıqları bir özəlliyinə nəzər salaq. Sinergetiklər izah edirlər ki, "aktor" termini B.Laturun yanaşmasında dərk edən subyektin özəlliyinə aiddir. Yəni B.Latura görə, koqnitiv və sosial-mədəni şəbəkə subyekt tərəfindən yaradılır və bu prosesdə onların daxili vəhdəti mövcuddur. Bu mənada dərk edən "müşahidəçi" öncədən tədqiqat obyektləri ilə vəhdətdə olurlar. "Şəbəkə" isə B.Laturun izah etdiyi kimi, konkret predmet, substansiya deyildir. İdrak sahəsini müəyyən düyün nöqtələrində birləşdirən "xətlərdir" [11, s. 12-19].

Bu da o deməkdir ki, aktor-şəbəkə yanaşmasında idrakın substantiv və funksional aspektləri öncədən sıx qarşılıqlı əlaqədə götürülür. Bu məqam məsələni birbaşa mürəkkəblik paradiqması çərçivəsində sinergetik idraki situasiyaya transfer edir. Sinergetik terminlərlə bu o deməkdir ki, aktor-şəbəkə yanaşmasında idraki prosesdə çoxölçülü kriteriyaların kəsişməsində əmələ gələn mənaların "yığılması"nı nəzərdə tutur. Bununla aktor-şəbəkə yanaşması çərçivəsində əsas məna şəbəkəsinin xarakterinə görə idrak obyekti dəyişir. Və ya onun ümumi nəzəri obrazı yaranır.

Beləliklə, belə qənaət yaranır ki, elə bir epistemoloji mövqe vardır ki, onun çərçivəsində paylanmış idrakla paylanmış biliyin qarşılıqlı əlaqəsi prizmasında fənlərarası tədqiqatların səmərəli qnoseoloji və metodoloji sahəsini müəyyən etmək olar. Həmin epistemologiya qismində, bizcə, aktor-şəbəkə nəzəriyyəsi ilə sinergetik təsəvvürlərin sintezini götürmək olar.

Yuxarıda vurğulanan məqamlardan fəlsəfi mahiyyətli bir neçə nəticə çıxarmaq mümkündür.

## Nəticə

Paylanmış idrak və paylanmış bilik epistemologiyaları müasir mərhələdə fəlsəfi-elmi dərketmənin universal qnoseoloji və metodoloji özəlliklərini anlamaqda yardımçı ola bilərlər. Lakin bu, yeni epistemoloji yanaşma baxımından yeganə hal deyildir, alternativlər mümkündür və bu təbiidir.

Paylanmış idrak dərketmənin biliyin yaranması aspektinə aiddir. Paylanmış bilik isə artıq əldə olunan biliklərin münasibətlərinə aiddir. Bu mənada idrakın tam mənzərəsi paylanmış idrakla paylanmış bilik epistemologiyasının sintezində yarana bilər.

Vurğulanan sintezin səmərəli olması şərtini biz B.Laturun aktor-şəbəkə yanaşması ilə sinergetik təsəvvürlərin inteqrasiyası imkanında görürük. Prinsipcə isə bu elmi problemin daha geniş araşdırılmasına ciddi ehtiyac vardır.

## ƏDƏBİYYAT


1. Distributed Knowledge: Crowdsourcing Glossary. (https://www.clickworker.com/crowdsourcing-glossary/distributed-knowledge/)
2. Fagin R., et all. Reasoning about Knowledge. Cambridge, Massachusetts London: The MIT Press, 1995, 544 p.
3. Fricker M. Epistemic Injustice: Power and the Ethics of Knowing. Oxford: Oxford University Press, 2007, 177 p.
4. Gürol I., Faik K. Distributive Epistemic Justice in Science. University of Chicago Press.

British Journal for the Philosophy of Science, Chicago, 2021, p.1-20.
5. Hutchins E. Cognition in the Wild. Cambridge. MA: The MIT Press, 1995, 381 p.
6. Hutchins E. Distributed Cognition // The International Encyclopedia of the Social and Behavioral Sciences. Elsevier, 2001. p. 2068-2072.
7. Medina J. The Relevance of Credibility Excess in a Proportional View of Epistemic Injustice: Differential Epistemic Authority and the Social Imaginary // Social Epistemology. London, 2011, vol. 25 (1), pp. 15-35.
8. Norton M. Cultural Sociology Meets the Cognitive Wild: Advantages of the Distributed Cognition Framework for Analyzing the Intersection of Culture and Cognition // American Journal of Cultural Sociology. Springer, 2020, vol. (1), p. 45–62.
9. Perry M. Distributed Cognition // Encyclopedia of the Mind: SAGE Publications, 2013, p. 258-260.
10. Stiglitz J.E. Knowledge as a Global Public Good // Global Public Goods. New York: Oxford University Press, 1999, p. 308–325.
11. Буданов В.Г. и др. Сложностность и проблема единства знания. Вып. 1: К стратегии познания сложности // Рос. акад. наук, Ин-т философии ; В.Г. Буданов, В.И. Аршинов, В.Е. Лепский, Я.И. Свирский. Москва: ИФ РАН, 2018, 105 с.
12. Касавин И.Т. Наука как общественное благо // Вестник Томского государственного университета. Философия. Социология. Политология. Томск, 2021, №60, с. 217-227.
13. Шиповалова Л.В. Распределенное научное познание – на пути к разнообразию // Эпистемология и философия науки. Москва, 2023, т. 60, №4, с. 22-31.
14. Шиповалова Л.В. Распределенное познание и его границы в контексте публичной научной коммуникации // Социология науки и технологий. 2019, т 10, №3, с. 56-71.

***Резюме***

***Вусал Зульфугаров***

***Распределенное познание и распределенное знание: в синтезе акторно-сетевого подхода и синергетических концепций***

В статье анализируются понятия «распределенное познание» и «распределенное знание» в гносеологическом контексте. «Распределенное познание используется в том смысле, который определил Э. Хатчинс в 90-х годах прошлого века.

Понятие «распределенное знание» также понимается относительно понятия «распределенное познание». Их сравнение производится в статье в контексте понимания сложных систем с междисциплинарной точки зрения.

Показано, что эффективная эпистемология взаимоотношений распределенного познания и распределенного знания может быть адекватно понята только в синтезе когнитивных аспектов и социокультурно-технологических аспектов.

Для этого в статье применяются еще два подхода. Один из них – акторно-сетевой подход Б. Латура, другой – синергетическая эпистемология. Акторно-сетевой и синергетический подходы обеспечивают теоретическую и методологическую основу для плодотворного взаимодействия распределенного познания и эпистемологии распределенных знаний при изучении сложных и нелинейных систем. С этой точки зрения в статье также был проведен сравнительный анализ распределенного познания, распределенного знания, акторно-сетевого подхода и синергетической эпистемологии.

В статье показано, что «распределенное познание» в понимании Х. Хатчинса обеспечивает комплексное изучение различных аспектов исследования сложных систем. Эпистемология «распределенного знания» исследует возможности системного подхода к применению полученных результатов. В настоящее время эффективны концепции акторно-сетевого подхода Б. Латура. Для него может оказаться полезным использование принципов синергетики в общеметодологическом масштабе.

Показано, что синергетический подход обладает эффективными теоретическими и концептуальными возможностями при исследовании сложных систем. В этом аспекте можно установить тесную связь между акторно-сетевым подходом и методологией исследования сложных систем синергетики.

В статье рассматривается тезис о том, что в этом контексте может быть полезно использовать эпистемологические особенности распределенного познания и эпистемологию распределенных знаний. Для исследования поставленной в статье проблемы предпочтителен междисциплинарный подход.

Соответственно, были выбраны методологические принципы нелинейности, интерсубъектности и синергетического образования.

В качестве метода применялась интеграция динамических и открытых систем.

Научная новизна связано с внедрением тезиса об интеграции акторно-сетевого подхода и синергетических идей в контексте взаимодействия распределенного познания и распределенного знания.

**Ключевые слова:** *эпистемология, приобретение знаний, распределение познания, распределение знаний, когнитивность, нелинейность, интерсубъективность, междисциплинарные исследования, интеграция знаний*

**_Summary_**

***Vusal Zulfugarov***

***Distributed Cognition and Distributed Knowledge:***
***In Synthesis of Actor-Network Approach and Synergistic Visions***

The article analyzes the concepts of "distributed cognition" and "distributed knowledge" in the epistemological context. "Distributed cognition is used in the sense defined by E. Hutchins in the 90s of the last century. The concept of "distributed knowledge" is also understood relative to the concept of "distributed cognition". Their comparison is made in the article in the context of understanding complex systems from an interdisciplinary perspective.

It is shown that the effective epistemology of mutual relations between distributed cognition and distributed knowledge can be adequately understood only in the synthesis of cognitive aspects and social-cultural-technological aspects.

For this, two more approaches are applied in the article. One of them is B. Latour's actor-network approach, and the other is synergetic epistemology. Actor-network and synergistic approaches provide a theoretical and methodological background for the fruitful interaction of distributed cognition and distributed knowledge epistemologies in the study of complex and nonlinear systems. From this point of view, in the article, a comparative analysis of distributed cognition, distributed knowledge, actor-network approach and synergistic epistemology was also conducted.

The article shows that "distributed cognition" in the sense of H. Hutchins provides a comprehensive study of various aspects in the investigation of complex systems. "Distributed knowledge" epistemology examines the possibilities of a systematic approach to the application of the obtained results. At this time, the concepts of B. Latour's actor-network approach are effective. For him, using the principles of synergetics on a general methodological scale can be useful.

It is shown that the synergetic approach has effective theoretical and conceptual features in the study of complex systems. In this aspect, it is possible to establish a close connection between the actor-network approach and the complex systems research methodology of synergetics. In the article, the thesis that it can be useful to use the epistemological features of distributed cognition and distributed knowledge epistemology in that context.

An interdisciplinary approach is preferred for investigating the problem posed in the article. Accordingly, the methodological principles of non-linearity, intersubjectivity and synergistic formation were chosen.

The integration of dynamic and open systems was applied as a method.

The scientific innovation is related to the introduction of the thesis of the integration of the actor-network approach and synergistic ideas in the context of the interaction of distributed cognition and distributed knowledge.

**Keywords:** *epistemology, acquisition of knowledge, distribution of cognition, knowledge sharing, cognitive, non-linearity, intersubjectivity, interdisciplinary research, integration of knowledge.*

Redaksiya heyətinin üzvü f.e.d., prof. Rüstəmov İzzət Əşrəf oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.